

*Xuraman HÜSEYNZADƏ*

## AĞ SAP

İlk dəfə
qara köynəyinin düyməsinin
ağ sapla tikilməyindən bildim
evinin
qadın əllərindən ötrü darıxdığını...
sonra mənə hədiyyə etdiyin kitabların tozu
və
saralmış vərəqlərdəki tənhalıq qoxusu
anlatdı həyatını...

Ürəyim sənindi
bilirəm
saçlarım
gözlərim
ruhum...
Amma daha çox əllərim sənin olsun istəyirəm...

Saçını tumarlayar
üstünü örtər yatarkən
xörək hazırlayar
süfrə bəzəyər sənə
əllərim...
Bir də
qara köynəyinə
qara,
ağ köynəyinə ağ sapla tikər düymələri...

## SƏN YAXŞI OĞLANSAN, ŞAİR...

Sənin şeirlərini oxumaq nə gözəldi
ürəyini oxumaqsa çətin
alnında qara yazısı var
kor taleyin, nakam məhəbbətin
göz yaşlarını qədəhdə içməyinlə
dərdini içinə çəkməyinlə
sən yaxşı oğlansan, şair!

Ayaq izlərin
küçəmizdə cığır açmazdan öncə
şeirlərin yol açdı qəlbimə
şeirlərini sevdim
ruhunu sevdim
sən bir az da mən idin
mən
sən ola bilmədim

yazdığın şeirlərin əhatəsində
təkliyini hiss etmirəm
o qədər zəngin aləmin var ki
səni çox istəyirəm
şeirlərin qədər
amma...
Bu - qara sevda, şair,
mənsə ağ rəngi sevirəm...

Postmodern şeirlər yazırsan
əruzun qəliblərinə sığmırsan bəzən
həyatın çərçivəsinə sığmadığın kimi
çəkilib öz hücrənə
ən gözəl ədəbiyyatı yaratmaqla
məşğulsan
papaq altda yatmısan
kimsəni oyatmamaq üçün
oyanmırsan
tərki-dünya olmağınla
sevməyi bacarmağınla
sən yaxşı oğlansan, şair!..

Canım mənim,
bircə bunu bilmirsən
şeir həm hər şeydi
həm də hər şey deyil
çoxuna gərəkdi

lap çoxuna gərək deyil
şeir həyatdı
sevgidi
amma çörək deyil

iki yol var, şair,
amma heç biri ürəyimdən keçmir...

## SƏNİ UZAQDA SEVMƏK

Səni uzaqlarda düşünmək istəyirəm
yaxında maraqsız olursan
məsafələr yaxın edir bizi
yad insanlar
yad ölkələr olur...
Səni uzaqda düşünmək istəyirəm
uzaqda
daha gözəl darıxıram səninçün
daha yaxşı arzulayıram əllərini
uzaqlarda olanda ümid olursan
xəyal olursan
arzu olursan
bir baxışa tamarzı olursan
elə sevirsən ki...
Uzaqda sevmək istəyirəm
səni
yaxından xatırlamaq üçün...

## TƏNHALIĞIN ƏL İZİ

Bircə kəlmə sözə bəndəm
De, günəşli günə gəlim.
Yenə özümdən çıxmışam,
İcazə ver, sənə gəlim.

Yuxu deyil, eyvana çıx,
Gör üzümü, duy səsimi.
Getmədən geri dönmüşəm,
İllərin yorğunu kimi.

Tək qalıblar özün kimi,
Pəncərəndəki çiçəklər.
Tənhlığın əl izinə
Sığal çəkir hörümçəklər.

Nə ayrılıq, nə qadınlar
Unutdurar sənə məni.
Qəlbindəki tənhalıqla
Qısqandırma yenə məni…

* * *

Yağmadı
bitmədi
ayrıldıq...
Sən
sevgisi dizinin üstdə olan
nankor birisi
mənsə sənin
tapdayıb əzdiyin çiçəklərdən
şirə çəkən
bal arısı...

## YAĞIŞ GECİKƏN KİMİ…

Bir-birimizə gecikdik
yarpaqları saralan
budaqları quruyan ağaca
yağış gecikən kimi…
Göy üzü bir az tez tutulaydı
buludlar gecikməyəydi
mehriban olmağa…
Birimiz tez çıxaydıq evdən
birimiz gecikəydik
təsadüfən rastlaşaydıq
qağayıya dönəydik
görüşəydik dəniz yurdumuzda
zaman bu zaman olmazdı
illər də bu illər
nə sən ruhuna xəyanət edəydin
nə də mən
sevəydik bir-birimizi
qağayılar dənizi
dəniz qağayıları sevən kimi…

## SON SÖZ

O gedən qatarın son vaqonu
sənin ürəyindi
bomboş
soyuq...
Arada ürəyindən xəbər tut

hörümçək tor qurar
mənsizlikdən...

yazdığın şeirin
son misrası mənəm
nöqtə qoya bilmirsən-
birdən ardını yazarsan deyə

bir zərrə ümidin qalıb-
bəlkə işığı
geri qayıtmam üçün
yollarımı aydınladar deyə...

* * *

Sənlə olan ümidlərimi
səhrada basdırmışam
yağış yağanda
göyərib qalxsın deyə

* * *

Gözlərim baxa-baxa dəfn etdilər
sənin ayaq izlərini
küçəmizə asfalt döşəyəndə...
Ürəyim sızlayacaq
Hər gün
ayaq izlərinin
məzarı üstündə yeridikcə...

## DAHA GÖZƏL YAŞAMAQ ÜÇÜN...

Ölüm - hər şeyə bir anda son verməkdir
yazılacaq gözəl bir şeirə nöqtə qoymaqdır...
Bəlkə də o şeir
onu yazacaq şairi dünya durduqca yaşadacaq
Kim bilir?
Mən səndən həyatı sevməyi öyrəndim
Yazacağım yeni şeirə tez nöqtə qoymağı yox.
Daha gözəl yazmaq üçün
çox düşünməyi öyrəndim.

## NƏ YAXŞI Kİ...

Nə yaxşı tanıdım və sevdim səni
Səni sevməkdən gözəl

nə varmış ki həyatda?Göy üzündə aydınlığı
gördüm səninlə
Aylı, ulduzlu gecələrdə işığı
Bir də günəşli səmadakı istiliyi...
O gözəlliklərdən ayırma məni
Ayrılığı yaşatma mənə.
Mən bu cənnətdə cəhənnəmi görmək istəmirəm
ayrılıq cəhənnəmini...
İstəmirəm aydın səmam zülmət olsun
İstəmirəm günəşim sönsün...

* * *

Gecə yarı…
Şəhərin yuxulu gözləri süzülür
şərab kimi
səhərə sarı…
Bir azdan
gecə öz libasını soyunacaq
adamlar gecəni çılpaq görmək üçün
yuxudan oyanacaq…

## LALƏ

Gen düşüb çəməndən, ayrılıb çöldən,
Bitmisən daşların arasında sən.
Didərgin düşmüsən obadan, eldən,
Açmısan qəlbimin yarasında sən.

Yurdun viran olub, yurddan qaçmısan,
Qaçdınlıq həsrəti yandırar səni.
Ocaqdan qaçmısan, oddan qaçmısan,
Burda buz baxışlar dondurar səni.

Bağrına dərd düşüb qara xal kimi,
Dərdin yaşayaydı kaş ürəklərdə.
Daşların içindən çıx sual kimi,
Axtar cavabını daş ürəklərdə.